# SPEAK UP
# TƏLİMATI

# CARLSBERG-də SPEAK UP

## CARLSBERG-də SPEAK UP NƏDİR?

Carlsberg işini dürüstlüklə və məsuliyyətli şəkildə, açıq və etik qaydada görməyə çalışır. Bunlar məsul qlobal bir pivəçəkən şirkət kimi strategiyamızı dəstəkləyən və nüfuzumuzu qorumağa kömək edən əsas Carlsberg dəyərləridir. Biz Carlsberg-dəki işçilər və biznes tərəfdaşlarının saxlamaq istədiyimiz prinsiplər və etik dəyərlər barədə daha aydın anlayışa sahib olmalarını təmin etmək məqsədilə gözləntilərimizi ifadə edən Etika və Davranış Kodeksi tətbiq etmişik. Etik davranış öhdəliklərimizə baxmayaraq sizi narahat edən və ya Carlsberg-in Etika və Davranış Kodeksini, siyasətlərimizi və ya tətbiq olunan qanun və qaydaları pozduğu görünən davranış müşahidə edə bilərsiniz. Qayda pozuntusu müşahidə etsəniz və ya şübhələnsəniz, bu haqda bizə məlumat verməyinizi xahiş edirik.

## NƏ ÜÇÜN PROBLEMLƏRİ BİLDİRMƏK VACİBDİR?

Biz işçiləri, podratçıları, təchizatçıları, istehlakçıları və istənilən şəxsi Carlsberg Etika və Davranış Kodeksinin pozulduğunu gördükdə, bunu bildirməyə dəvət edirik. Narahatlıqları bildirməklə siz Carlsberg-ə məsələni nəzərdən keçirməsi və bir tədbir görməsi üçün imkan vermiş olursunuz. Baş vermiş qayda pozuntusu barəsində səssiz qalmaq vəziyyəti daha da pisləşdirə və inamı sarsıda bilər. Düşünürük ki, narahatlıqları bildirmək nüfuzumuzu, uğurumuzu və fəaliyyət lisenziyamızı saxlamaq üçün əsasdır. Biz həll edilməli olan potensial narahatlığı müəyyən edən və bildirən işçiləri və digərlərini yüksək dəyərləndiririk.

Problemləri bildirən işçilər qorunur (daha ətraflı məlumat üçün 6-cı səhifəyə baxın) və şübhələndikləri qayda pozuntusu barədə narahatlıqlarını bildirdiklərinə görə cəzalandırılmayacaqlar. Carlsberg problemləri bildirdiyinizə görə sizə qarşı hər hansı cəza tədbirlərinin görülməsinə imkan verməyəcək.

## BU TƏLİMATIN MƏQSƏDİ NƏDİR?

Bu sənəd şübhəli qayda pozuntusu barədə narahatlığınızı əminliklə və cəzalandırılma qorxusu olmadan *necə* bildirə biləcəyinizi izah edir. Bu sənəddə həmçinin izləmə və müvafiq tədbir görülməsi ilə bağlı bizdən *nələri* gözlədiyiniz də öz əksini tapmışdır.

## KİMLƏR ÖZ NARAHATLIĞINI BİLDİRƏ BİLƏR?

Həm işçilər, həm də kənar tərəflər öz narahatlıqlarını bildirməyə dəvətlidir. Speak Up sistemimiz Carlsberg daxilində baş vermiş qayda pozuntusu barədə öz narahatlığını bildirmək istəyən istənilən şəxsə təqdim olunur.

## BU TƏLİMAT HANSI NARAHATLIQLARI ƏHATƏ EDİR?

Etika və Davranış Kodeksimizin, siyasətlərimizin və ya tətbiq olunan qanun və qaydaların hər hansı şübhəli pozuntusu barədə narahatlıqları bildirmək üçün Speak Up sistemimizdən istifadə edilə bilər. Narahatlıqlara nümunələr aşağıdakılardır:

- Fırıldaqçılıq, rüşvətxorluq, korrupsiya, aktivlərin qeyri-qanuni mənimsənilməsi və ya qeyri-adekvat maliyyə və ya qeyri-maliyyə uçotunun aparılması şübhələri
- İnsan hüquqların pozulması
- Rəqabət haqqının qanunsuz pozulması
- Çirkli pulların yuyulması və ya ticarət sanksiyalarının pozulmaları
- İnsayder ticarəti şübhələri
- Məxfi biznes məlumatlarının açıqlanması
- (Cinsi) zorakılıq, aqressiv davranış və ya ayrı-seçkilik
- Məlumatların mühafizəsi ilə bağlı qaydaların pozulması
- Ekologiya, sağlamlıq və təhlükəsizliklə bağlı narahatlıqlar
- Spirtli içki və ya dərmanlardan yanlış istifadə ilə bağlı narahatlıqlar
- Qanuna uyğun şəkildə öz narahatlığını bildirdiyinə görə hər hansı bir şəxsə qarşı görülən cəza tədbiri

Carlsberg-in Speak Up sistemindən aşağıdakı məqsədlər üçün istifadə etməyin:

- Həyat və ya əmlak üçün birbaşa təhlükə ehtiva edən hadisələrin bildirilməsi. Təcili yardıma ehtiyacınız varsa, müvafiq yerli qurumlar və yerli SƏTƏM nümayəndənizlə əlaqə saxlayın.
- Birbaşa rəhbəriniz və ya İR ilə qaldırılmalı olan cari məşğulluq məsələləri (məs., məzuniyyət günləri, əmək haqqı və müavinətlər, fəaliyyət qiymətləndirmələri) barədə məlumat vermək.
- Zavod və ya avadanlığa ciddi zərər, təbi fəlakətlər və ya terrorist hücumları kimi Böhranlı Vəziyyətlərdə İdarəetmə Siyasətinə uyğun olaraq bildirilməsi tələb olunan hadisələr. Bunun əvəzinə yerli təhlükəsizlik nümayəndənizlə əlaqə saxlamağınız xahiş olunur.
- Şəxsi və ya hüquqi münaqişələrin həll edilməsi.
- Səhv olduğunu bildiyiniz ittihamlar irəli sürmək. Belə etmək (intizam) tədbirlərin görülməsi ilə nəticələnə bilər.

## NARAHATLIQLARI NECƏ BİLDİRMƏLİ?

Şübhəli qayda pozuntusu barədə narahatlıqlar müxtəlif kanallar vasitəsilə qaldırıla bilər. Qayda pozuntusundan şübhələnirsinizsə, onu ilk növbədə birbaşa həmin davranışı sərgiləyən şəxslə həll etməyiniz və ya narahatlığınızı öz birbaşa rəhbərinizə bildirməyiniz tələb olunur. Onlarla əlaqə saxlamaq istəmirsinizsə, İR/hüquq təmsilçisi və ya bazarın idarəedici direktoru ilə əlaqə saxlaya bilərsiniz. Bu nümayəndələr Carlsberg-də doğru şöbəyə müvafiq prosedurlarımıza uyğun olaraq baxılması və izlənilməsi üçün bir məsələ qaldırıldığını bildirəcəklər.

Qaldırmaq istədiyiniz məsələnin yuxarıda qeyd edilmiş kanallar vasitəsilə həll edilə bilməyəcəyini düşünürsünüzsə, speakup@carlsberg.com e-poçt ünvanımızdan və ya Convercent tərəfindən təchiz edilən Carlsberg SpeakUp xətti vasitəsilə kənardan idarə olunan Speak Up xəttimizdən istifadə edərək narahatlıqları məxfi şəkildə və öz dilinizdə bildirə bilərsiniz. Carlsberg-in Speak Up xətti müstəqil üçüncü bir şəxs tərəfindən idarə olunur, ilin 365 günü 24/7 xidmətinizdədir və Carlsberg Group-la əlaqəli deyil. Kənardan idarə olunan Speak Up xətti vasitəsilə narahatlıqlarınızı bildirmək üçün onlayn giriş və ya telefon xəttindən[1] istifadə edə bilərsiniz. Bütün məlumatları aşağıdan əldə etmək mümkündür:

**Convercent tərəfindən təchiz edilən Carlsberg SpeakUp xətti**

Burada siz ölkələr üzrə telefon nömrələri və narahatlığınızı onlayn bildirmək istədiyiniz halda keçidlər tapa biləcəksiniz. Telefon xətləri ödənişsizdir[2] və yerli dilinizdə dəstək xidməti təklif edir.

Speak Up xəttindən (internet və ya telefon) istifadə etdikdə, sizə məxfi bir buraxılış nömrəsi veriləcək və fərdi şifrə və təhlükəsizlik sualı təqdim etməyiniz istəniləcək. Giriş nömrəsi və şifrə sizə kənardan idarə olunan SpeakUp platformasında bildirişinizin statusunu yoxlamağa, həmçinin kimliyinizi açıqlamadan SpeakUp Yoxlama Komandası ilə əlaqə saxlamağa imkan verir. E-poçt ünvanı təqdim etmisinizsə, bildirişinizin statusu dəyişəndə sistemdən e-poçt bildirişləri alacaqsınız. Bu kənardan idarə olunan Speak Up sistemi vasitəsilə əldə olunan bütün bildirişlər sonradan baxılması Carlsberg-ə geri göndərilir. Əgər narahatlığınızı anonim olaraq bildirmək qərarına gəlmisinizsə, Carlsberg şəxsi məlumatlarınızı bilməyəcək.

Carlsberg-in Dürüstlük Komitəsi Speak Up və bildirilən məsələlərin sonradan izlənilməsi ilə əlaqədar şirkət miqyasında göstərilən səylərə nəzarət edir.

[1] Speak Up telefon xətti Carlsberg-in mövcud olduğu ölkələr üçün təqdim olunur
[2] Azərbaycan istisnadır

## POZUNTULAR BARƏDƏ KƏNARDAN MƏLUMAT VERİLMƏSİ

Sizi narahatlıqlarınızı yuxarıda qeyd edilmiş kanallardan biri vasitəsilə daxildən bildirməyə çağırırıq. Narahatlıqları dilə gətirməklə siz bizə məsələyə baxmaq, sizə və ya məsələdə iştirak edən şəxslərə kömək etməyə və Etika və Davranış Kodeksi və siyasətlərinin pozuntusu baş verdiyi və əsaslandırıldığı halda tədbir görməyə imkan verirsiniz. Bu yolla şirkət birlikdə inkişaf edə bilər.

## HANSI MƏLUMATLARI TƏQDİM ETMƏLİSİNİZ?

Narahatlıq barədə bildiriş təqdim edərkən sizdən mümkün qədər çox müvafiq məlumat təqdim etməyinizi xahiş edirik. Təfərrüatlı məlumat bizə narahatlıqları ətraflı qiymətləndirməyə və araşdırmağa və lazım olduqda tədbir görməyə imkan verir. Buraya aşağıdakılar daxildir:

- Narahat olmağınıza səbəb olan vəziyyətin təsviri, o cümlədən qayda pozuntusunun tarixçəsi və hadisələrə nümunələr.
- Məsələdə potensial olaraq iştirak edən şəxslərin adları, tarixlər, yerlər və digər müvafiq məlumatlar.
- Hər hansı təsdiqləyici sənədlər və narahatlıqla bağlı bildirişinizlə əlaqəli sənədlər.

Qaldırılmış məsələ yalnız yetəri qədər məlumat ehtiva etdikdə və gələcəkdə məlumat əldə etmək ehtimalı olduqda izlənilə bilər. Bütün faktlara sahib olmasanız belə, sizi mümkün qədər tez bir zamanda məsələni bildirməyə və əlinizdə olan faktları bölüşməyə səsləyirik. Sizdən bütün cavablara sahib olmağınızı gözləmirik və narahatlığın yaxşı əsaslandırıldığını sübut etməyiniz tələb olunmur. Carlsberg narahatlıq üçün əsl səbəbin olub-olmadığını müəyyən etmək üçün məsələni araşdıracaq.

Heç bir halda məsələni özünüz araşdırmayın və məhkəmə işi açmaq üçün dəlil axtarmayın. Sizi əmin edirik ki, faktiki narahatlığın səhv və ya yanlış yönləndirmənin nəticəsi olduğu ortaya çıxarsa sizə qarşı heç bir intizam tədbiri və ya digər tədbirlər görülməyəcək.

# MƏXFİLİK VƏ CƏZA TƏDBİRLƏRİNİN OLMAMASI

## BİLDİRİŞ MƏXFİ QALACAQMI?

Bütün bildirişlər məxfi saxlanılır. Araşdırmalar zamanı və sonra Carlsberg Speak Up bildirişlərinin detallarını, o cümlədən bildirişi göndərənin və bildirişdə qeyd olunan istənilən şəxsin kimliklərini hər zaman məxfi saxlayacaq. Biz məlumatları bilməsi lazım olan məhdud sayda insanla bölüşürük və yalnız qanunla tələb olunduqda və ya mühüm ictimai maraqla bağlı olduqda, bu kiçik qrup xaricində açıqlayırıq. Siz özünüz ehtiyatlı olaraq və təqdim etdiyiniz bildirişi həmkarlarınız və ya hər hansı başqa şəxslərlə müzakirə etməyərək bizə məxfiliyi qorumaqda kömək edə bilərsiniz.

## NARAHATLIQLARI ANONİM ŞƏKİLDƏ BİLDİRMƏK MÜMKÜNDÜRMÜ?

Narahatlıqlarınızı anonim şəkildə bölüşə bilərsiniz, məs., Speak Up xəttimiz vasitəsilə. Bununla belə, anonim şəkildə təqdim edilən bildirişləri araşdırmaq bizim üçün daha çətin və bəzi hallarda qeyri-mümkün olduğu üçün kimliyinizi açıqlamanızı tövsiyə edirik.

## BƏS MƏXFİLİK NECƏ OLACAQ?

Carlsberg məsələdə iştirak edən hər kəsin məxfiliyini qorumağa sadiqdir. Biz şəxsi məlumatları icazəsiz istifadədən və emaldan qorumaq üçün əlimizdən gələn hər şeyi edəcəyik. Bu təlimatla əlaqədar əldə edilən hər hansı şəxsi məlumat yalnız bu sənəddə izah edilən məqsədlər üçün və ya qanunvericiliyə və ya mühüm ictimai maraqlara uyğun olaraq istifadə ediləcək.

Speak Up bildirişləri xüsusi bir Speak Up platformasında etibarlı şəkildə saxlanılır. Speak Up veb giriş və ya telefon xətti vasitəsilə bildirilən məsələlər avtomatik yüklənir; digər kanallar vasitəsilə verilən bildirişlər isə əl ilə yüklənir. Bütün bildirişlər saxlama və silmə qaydalarına uyğun olaraq və fərdi qiymətləndirmə əsasında silinir və saxlanılır.

Speak Up bildirişinin nəzərdən keçirilməsi zamanı əldə edilən şəxsi məlumatlar müvafiq silmə və saxlama qaydalarına uyğun olaraq saxlanılacaq və silinəcək. Aşağıdakı halların hər hansı birində şəxsi məlumatlar Speak Up platformasından dərhal silinəcək:

- Bildiriş bu təlimata uyğun olaraq bildirilə bilən hadisə və ya insidentlərə aid deyilsə.
- İlkin baxış zamanı iddiaların əsassız olduğu aşkar edilərsə.
- Səlahiyyətli şəxslər işi öz üzərlərinə götürüblərsə və məlumatların emalı üçün bizim kömək və dəstəyimizə artıq ehtiyac yoxdursa.

Şəxsi məlumatlar saxlama və silmə qaydalarına uyğun şəkilsə saxlanılacaq. İstənilən vəziyyətdə şəxsi məlumatların saxlanılması üçün məqbul və lazımi əsaslar olduqda (məs., məhkəmə öncəsi hüquqi proses, məhkəmə prosesi, intizam tədbirləri, xəbərdarlıqlar, iddialar və s.), şəxsi məlumatlar xüsusi etibarlı bir platformada xidməti vaciblik prinsipi əsasında məhdud istifadə hüququ ilə saxlanılacaq.

## NARAHATLIĞI BİLDİRƏN ŞƏXS KİMİ NECƏ QORUNACAQSINIZ?

Biz insanları şübhələndiyi qayda pozuntusu barədə öz narahatlıqlarını bildirməyə çağırırıq və işçilər onları narahat edən məsələləri həll etdikləri zaman qorunurlar. Carlsberg Group qanuna uyğun şəkildə narahatlığını bildirən və araşdırmalarda iştirak edən işçilərin cəzalandırılmasını qadağan edir. Hədə-qorxu və ya cəzalandırmanın heç bir formasına yol verilmir. Narahatlıqları bildirən şəxslərə qarşı cəzalandırma tədbirlərinin görülməsi Etika və Davranış Kodeksinin pozulması hesab edilir və intizam tədbirlərinin görülməsinə gətirib çıxara bilər.

Şübhələndiyi qayda pozuntusu haqqında qanuna uyğun şəkildə narahatlığını bildirən özünə və ya başqa bir şəxsə qarşı hər hansı cəzalandırmadan xəbər tutan istənilən şəxs speakup@carlsberg.com ünvanına e-poçt göndərməklə Speak Up kanalı vasitəsilə bizimlə əlaqə saxlamalıdır. Cəzalandırma barədə bildiriş özü də başqa bir Speak Up bildirişi hesab olunur və eyni prosedur izlənilir.

## SPEAK UP SİSTEMİNDƏN SUİ-İSTİFADƏ EDİLDİKDƏ NƏ BAŞ VERİR?

Bilərəkdən yanlış ittihamlar irəli sürmək Etika və Davranış Kodeksinin pozulmasıdır. Şübhəli qayda pozuntusu haqqında bildirməklə qanuna uyğun hərəkət etməyən və ya bu təlimatın məxfilik müddəalarına hörmət etməyən istənilən şəxs bu təlimatda yer alan hüquqlardan və qorunmadan məhrum olur və (intizam) tədbirinə tabe tutulur.

# NARAHATLIĞINIZI BİLDİRDİKDƏN SONRA NƏ BAŞ VERİR?

## NARAHATLIĞI BİLDİRDİNİZ, SONRA NƏ BAŞ VERİR?

Hər bir potensial qayda pozuntusu haqqında bildirişini ciddi qəbul edirik. Cavab tədbirinin düzgün keyfiyyətdə və sürətli olmasını təmin etmək üçün hər bir işi qoyduğumuz standartlara uyğun araşdırırıq. Narahatlıq barədə bildiriş təqdim etdikdə, üç iş günü ərzində təsdiq əldə edəcəksiniz. Bildirişiniz əlavə məlumat üçün sizinlə əlaqə saxlaya biləcəyimiz ilkin baxışdan keçəcək. Lazım olduqda, ilkin baxışdan sonra araşdırma aparılacaq. Ortalama olaraq, məsələnin bağlanması bir ilə üç ay arası gözlənilə bilər. Biz məsələni mümkün qədər tez bağlamağa çalışırıq. İlkin yoxlamanın və ya araşdırmanın nəticəsi, yəni, pozuntunun baş verdiyini müəyyən edib-etmədiyimiz barədə yoxlama başa çatdıqdan sonra sizə məlumat veriləcək. Biz məxfilik, gizlilik və bütün aidiyyəti şəxslərin qanuni hüquqları səbəbi ilə məsələnin və ya görülmüş əlaqəli intizam tədbirlərinin nəticəsi barədə tam təfərrüatları təqdim edə bilməyəcəyik.

## MƏSƏLƏLƏRLƏ KİM MƏŞĞUL OLUR VƏ ONLAR NECƏ HƏLL OLUNUR?

Bildirişiniz ərizəçi işlərinin idarə edilməsi sistemində (CMS) qeyd ediləcək. Narahatlığın mahiyyəti və potensial təsirindən asılı olaraq, işə yerli təşkilat və ya Group Daxili Audit və Nəzarət şöbəsinin tərkibində olan xüsusi Speak Up Yoxlama Komandası tərəfindən baxılacaq. Bu komanda Carlsberg Dürüstlük Komitəsinin nəzarəti və təlimatları altında işləyir.

Bildirilən hər bir narahatlıq gələcək baxış və araşdırmanın tələb olunub-olunmadığını müəyyən etmək üçün narahatlığın təhlil edildiyi ilkin baxışla başlayır. Ola bilər ki, əlavə məlumat üçün sizinlə əlaqə saxlayaq. Əgər bildirilən narahatlıq əlavə baxış tələb edərsə, biz bu işi doğru funksiyaya həvalə edəcəyik. Lazım gələrsə, araşdırmaya kömək etmək üçün hüquqşünaslar, məhkəmə ekspertləri, auditorlar və ya mühasiblər kimi kənar ekspertlər cəlb oluna bilər. Bu üçüncü tərəflər ciddi məxfilik şərtləri altında işləyirlər. İlkin baxış və araşdırmalarımız müstəqil, iştirak edən bütün tərəflərə münasibətdə ədalətli və qərəzsiz şəkildə və müvafiq qanun və prinsiplərə uyğun aparılır. Buraya ədalətli dinləmə də daxildir. Prinsipcə, biz əlaqəsi olan hər hansı şəxsə onun barəsində şikayət daxil olduğunu bildiririk.

## ARAŞDIRMALARA CƏLB OLUNMUŞ ŞƏXSLƏRLƏ ƏLAQƏ SAXLANILMASI

Speak Up araşdırmasında narahatlığını bildirən şəxs və ya şahid və yaxud da subyekt kimi iştirak edib-etməməyinizdən asılı olmayaraq, əməkdaşlıq etməli və bütün qanuni suallara tam və dürüst cavab verməlisiniz. Məlumatı bilərəkdən gizlətmək və ya araşdırmanı aparan şəxslərə yanlış məlumat vermək araşdırmanı ləngitmək və ya mane olmaq kimi qəbul edildiyi üçün intizam tədbirlərinin görülməsinə səbəb ola bilər. Araşdırmada iştirak edən bütün tərəflər, o cümlədən subyekt nüfuzlarına lazımsız xələl gətirilməməsi üçün məxfilik hüququna malikdir. Əgər siz araşdırmada iştirak edirsinizsə və ya bu barədə məlumat alırsınızsa, bu səbəbdən məsələni ciddi şəkildə məxfi saxlamalısınız.

## MÜVAFİQ TƏDBİRLƏR

Əgər həqiqətən də qayda pozuntusu baş veribsə, müvafiq qanunlara uyğun olaraq müvafiq tədbirlər görüləcək. Öz davranışlarına aid olan narahatlıq barədə məlumat verən şəxslər araşdırma, intizam tədbiri, cinayət təqibi və/və ya mülki məsuliyyətdən avtomatik azad olunmayacaqlar. Eyni qayda məlumat verən, məlumat verilməsini məcbur edən və ya Speak Up sistemində məsələyə baxış keçirilməsinə kömək edən hər hansı digər işçiyə də tətbiq olunur.

# MONİTORİNQ VƏ NƏZARƏT

Bu təlimat Etika və Davranış Kodeksinə dəstək üçün hazırlanmışdır. Carlsberg Dürüstlük Komitəsi bu Speak Up Təlimatının effektivliyinə nəzarət edir.

# ƏLAQƏ

Speak Up və ya bu Speak Up Təlimatı barədə ətraflı məlumat üçün öz rəhbəriniz, İR və ya Hüquq şöbəsi ilə əlaqə saxlamağınız və ya speakup@carlsberg.com ünvanına e-poçt göndərməyiniz xahiş olunur. Narahatlıq barədə göndərdiyiniz bildirişə və ya sizə qarşı göndərilmiş bildirişə baxılmadığını və ya düzgün şəkildə həll edilmədiyini düşünürsünüzsə, dərhal speakup@carlsberg.com ünvanından Carlsberg Group ilə əlaqə saxlayın.

**Oktyabr, 2021-ci il**
Dekabr 2020-ci il versiyasını əvəz edir

Carlsberg Breweries
A/S  100 Ny Carlsberg
Vej 1799 Kopenhagen
V  Danimarka